Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
24 iyun / 2021

# Adını Zəfər tariximizə yazan igid

**İkinci Qarabağ müharibəsində hünər göstərib adını Zəfər tariximizə yazan igidlərdən biri də Masallı elində boya-başa çatan Masim Hafiz oğlu Qurbanovdur. 19 yaşında canından keçdi ki, təki Vətən yaşasın. Masimdə Vətənə, torpağa bağlılıq ilahi bir sevgidən gəlirdi. Elə ona bu əbədi şöhrəti qazandıran uşaqlıqdan Tanrı payı kimi qəlbinə hakim kəsilən müqəddəs, ülvi duyğular oldu. Masim göz açdığı işıqlı dünyada qəhrəman olmaq haqqında heç düşünməzdi. Qaldı ki, Vətənini çox sevirdi.**

Masim Qurbanov doğma Ərəb kənd orta məktəbini bitirəndə artıq dost-tanış yanında özünə qarşı səmimi, xeyirxahlıq hisslərini oyatmışdı. Onun hər



əməli cəmiyyətin arzu və istəyindən yaranırdı. Yaxşı, gözəl işlər hesabına Vətəninə, xalqına daha çox gərək olmaq amali ilə müstəqil həyata qədəm qoyan Masim 2019-cu ildə həqiqi hərbi xidmətə gedir. Hər qarışına qurban dediyi doğma Azərbaycanın keşiyində durmağı özünə şərəf bilir, onu göz-bəbəyi kimi qoruyur. Həm də vətənpərvərliyi, cəsurluğu, mərdliyi, yoldaşa sədaqəti nümunə olaraq komandirlərin dilindən düşmür. Bir neçə dəfə təcavüzkar düşmənlə üz-üzə gələn Masim onlara verdiyi layiqli cavabla bir daha Vətənə olan məhəbbətini sübut edir.

Erməni dığalarını məhv etmək, can Azərbaycanın cənnət məkan guşəsini azad görmək onun bütün arzularının başında dururdu. Və çox sevgi dolu ürəklə dediyi kəlam "Vətən onun yolunda şəhid olmağı bacaran oğulların çiynlərində ucadır, müqəddəsdir" olurdu.

Vətən sevgisi İkinci Qarabağ müharibəsi başlanan günü çəkinmədən, qorxmadan Masimi odun-alovun içinə aparır. Doğma torpaqların azadlığı naminə qələbə ümidi ilə döyüşür Masim. Cəbrayıl, Füzuli rayonlarının alınmasında igid əsgər əsl hünər göstərir, düşmənin çoxlu sayda canlı qüvvəsini o dünyalıq edir. Qubadlıda ağır müharibə meydanında tarix yazmaqla şəhidlik zirvəsinə ucalır...

**Masimin atası Hafiz Birinci Qarabağ müharibəsində döyüşüb, ikinci qrup müharibə əlilidir. O, deyir:** "30 il həsrətində olduğumuz Qarabağ torpaqları oğlum Masim kimi igidlərin qanı bahasına azad edildi. Masim bizdən çox Vətənə bağli idi. İndi o, təkcə mənim yox, bütün Azərbaycan xalqının oğludur. Belə oğullarla fəxr etməyə dəyər. Masim şərəfli ölümü ilə Vətənin müqəddəsliyini göstərdi. Məqamı gələndə Vətən, torpaq yolunda can qoymaq bizim hər birimizin borcudur".

**Zəfər ORUCOĞLU**